UOT 101.1::316

**Adil Sadıxov**
**Azərbaycan Texniki Universitetinin dosenti**
**Az.1073, Bakı şəh., H.Cavid pr. 25**
**E-mail: ilqarsv.@mail.ru**

# SİVİLİZASİYA VƏ MƏDƏNİYYƏT

**Xülasə:** Məqalədə mədəniyyət və sivilizasiya anlayışlarından danışılır. Onların dialektik əlaqəsi göstərilir.Maddi mədəniyyətin mənəvi mədəniyyətin inkişafı üçün baza rolunun oynadığı bildirilir.Göstərilir ki, mədəniyyət və sivilizasiya anlayışları bir-birlərinə çox yaxın olsalar da, onları fərqləndirmək lazımdır.Mədəniyyətdən fərqli olaraq sivilizasiya cəmiyyətin texniki inkişafı və tərəqqisi ilə üzvi şəkildə bağlı olaraq öz daxilində bir neçə mədəniyyəti ehtiva edə bilər.

**Açar sözlər:** mədəniyyət, sivilizasiya, insan, cəmiyyət, mənəviyyat, dialektika, tərəqqi.

Müasir dövrdə sivilizasiya və mədəniyyət tarixinin öyrənilməsi olduqca vacibdir.Onlar arasındakı münasibətlərin təhlil edilməsi böyük əhəmiyyətə malikdir.Dünya mədəniyyətinin inkişafı, sivilizasiyalar heç də hər hansı bir millət və xalq tərəfindən deyil, bütün millət və xalqların qarşılıqlı əlaqəsi, yaxınlığı və səyi nəticəsində yaranmışdır.Sivilizasiya və mədəniyyətin tərəqqisi insan amilinin hər vasitə ilə intensivləşdirilməsini, geniş xalq kütlələrinin bu prosesdə fəal və şüurlu iştirakını nəzərdə tutur.

Göstərilməlidir ki, hər hansı bir sivilizasiya, ümumiyyətlə boş yerdə yarana bilməz, bu dünya mədəniyyətinin məhsulu və yekunudur, bu eyni zamanda bəşəriyyətin, mənəvi həyatın bütün sahələrini əhatə edir, sivilizasiya və mədəniyyətin böyük əhəmiyyəti buradan yaranır.Deməli, sivilizasiya və mədəniyyət boş və zəminsiz bir yerdə yaranmayıb, onun özünəməxsus cəhətləri, iqtisadi, sosial və mənəvi əsasları vardır. İngilis sosioloqu və alimi A.Toynli sivilizasiyalar, onun yaranması və səbəblərindən bəhs edərkən yazırdı: «Sivilizasiyalar yaranırlar, inkişaf edirlər, süqut edir, dağılırlar. Bəşəriyyətin vəzifəsi yeni sivilizasiya yaratmaqdan ibarətdir».Şərq və Qərb sivilizasiyaları min illər boyu bir-birini zənginləşdirmiş və daha da inkişaf etmişdir.C.Nehru özünün «Dünya tarixinə nəzər» əsərində yazırdı ki, dünya sivilizasiyasının inkişafında Asiyanın rolunu danmaq ədalətsizlik olardı.İslam dünaysının

orta əsrlərdə Avropa qitəsinə nisbətən irəlidə olması və ona güclü təsir göstərməsi Kompanellanın, Fixtenin, Monteksenin və başqa məhşur mütəfəkkirlərin yaradıcılığında hərtərəfli öz əksini tapmışdır.Qeyd olunmalıdır ki, sivilizasiya dedikdə əsasən cəmiyyətin və mədəniyyətin sıx əlaqəsi, mənəvi dəyərlərinin mənimsənilməsi və istifadəsi nəzərdə tutulur.Texnikanın tərəqqisi və səviyyəsi ayrı-ayrı mədəni adətlərə və ənənələrə malik olan insan qrupları, fərdləri və cəmiyyətləri tərəfindən də mənimsənilməsinə imkanlar yaradır, fərdələrin mənəvi inkişafına və şüur səviyyələrinin formalaşmasına səbəb olur.Müasir dövrdə elmi-texniki tərqqinin təsiri mədəniyyətin bütün sahələrində özünü biruzə verir.Mədəniyyət institutlarının fəaliyyətini texniki vasitələrdən ayrı təsəvvür etmək mümkün deyildir.Bütün bayramlar, el şənlikləri videokameralar vasitəsi ilə lentə köçürülür.Milli adət və ənənələrin, hətta dini ayin və mərasimlərin icra olunması prosesində də texniki vasitələrin təsiri ilə modernləşmə aparılmışdır.

Çünki, vaxtaşırı baş verən elmi-texniki tərəqi yeni mədəniyyətin yaranmasının əsas vasitəsinə çevrilir.İnsan biliyi, zəkası inkişaf etdikcə mədəniyyət də inkişaf edir və bu yeniləşmə dinamik olaraq tez-tez təkrarlanır.

Məşhur alim Albert Şveytser cəmiyyətin tarixində mədəniyyətin yerini çox düzgün göstərmişdir. O, bildirir ki, mədəniyyət istər insanın, istərsə də bəşəriyyətin bütün sahələrində əldə etdikləri elə nailiyyətlərin məcmusudur ki, həmin nailiyyətlər şəxsiyyətin mənəvi təkmilləşməsinə və ictimai tərəqqiyə şərait yaradır.

Ümumiyyətlə, mədəniyyətdən danışarkən qeyd etmək lazımdır ki, elə bir sahə, yer yoxdur ki, mədəniyyət ora təsir göstərməsin.Mədəniyyətin inkişafına təkcə onun daxili təkamülü deyil, həm də tarixi təsir və tarixi mənimsənilməsinin əhəmiyyəti olduqca böyükdür.Mədəniyyətdən söhbət gedərkən əsasən mənəvi mədəniyyət nəzərdə tutulmalıdır.Yəni incəsənət, əxlaq, bilik, etiqad, hüquq və s., mədəniyyətdə təkcə ümumbəşəri yox, həm də ayrı-ayrı xalqlara aid olan dəyərlər də vardır.

Ancaq göstərilməlidir ki, maddi mədəniyyət mənəvi mədəniyyətin inkişafı üçün baza rolunu oynayır.Məlumdur ki, mədəniyyət varlığı, cəmiyyəti və təbiəti dərketmə prosesində əldə olunan dəyərləri əhatə edir.Sosial əhəmiyyət kəsb edən mənəvi mədəniyyət maddi və mənəvi tələbatları əhatə etməklə, mənəvi sərvətlər aləminin konkret tarixi bölgüsünü, cəmiyyətin mənəvi inkişafını, tarixi tərəqqisini özündə əks etdirir.

Qeyd etmək lazımdır ki, mədəniyyət və sivilizasiya insanın bütün fəaliyyətinin adi məişətindən tutmuş davranış normalarından insan idrakının ən yüksək səviyyələrini belə əhatə edir.

Heç də təsadüfi deyil ki, böyük fransız sosioloqu E.Dyurkheym kollektiv vərdişləri, ənənələri, adətləri, davranış qaydalarını, mərasimləri sosial fakt kimi insanla dəyərləndirirdi.Bütövlük kəsb edən sistem kimi mədəniyyət bütün dövrlərdə yaradıcı fəaliyyətlə şərtlənmişdir.Bu sosial fenomenin maddi və eləcə də mənəvi tərəfi insan zəkasının səciyyələndirilməsinin tərkib hissəsi kimi mövcuddur və o, ən vacib və mühüm problemlərin həllində xüsusi qüvvə kimi mənalanır.

İnsanın mədəniyyətə əsaslanan həyat tərzi ciddi və böyük dəyişikliklərə məruz qalmışdır.İnsan elə ictimai münasibətləri yaxşı hesab edir ki, onun üçün faydalıdır və əksinə, elə ictimai münasibətlər yaramaz sayılır sayır ki, onun üçün zərərlidir.Bu mənada bəşəriyyət tarixinə səthi nəzər salsaq belə qənaətə gəlmək mümkündür ki, insan uzun müddət öz həyat tərzinə görə heyvanlar aləmindən praktiki olaraq fərqlənməmişdir.

Xeyli əsrlər ərzində insanlar tədricən gələcəkdə baş verən böyük və sürətli kəşflərin və ixtiraların mədəni əsasını öyrənmiş və inkişaf etdirmişlər.

Fəlsəfi ədəbiyyatda mədəniyyətin inkişafına dair iki başlıca nöqteyi-nəzər mövcuddur: mədəniyyətin təkamüllə inkişafı nəzəriyyəsi və mədəniyyətin inkişafına dialektik metodla yanaşma. Mədəniyyətin inkişafına aid təkamül nəzəriyyəsinin əsas prinsipi bundan ibarətdir ki, mədəniyyət elementləri və mədəniyyət komplekslər tədricən dəyişilir və bu dəyişilmə gedişində onlar tamamilə yeni təşkil alır.Belə halda mədəniyyət nümunələrinin dəyişilməsi sadədən mürəkkəbə, oxşarlıqdan qeyri-oxşarlığa doğru istiqamətdə baş verir.

Göstərilməlidir ki, mədəniyyət və sivilizasiya anlayışları bir-birlərinə çox yaxın olsalar da, bəzən tam eyni mənada işlədilir.Bu düzgün deyildir və bunları fərqləndirmək lazımdır.Mədəniyyətdən fərqli olaraq sivilizasiya cəmiyyətin texniki inkişafı və tərəqqisi ilə üzvi şəkildə bağlı olaraq öz daxilində bir neçə mədəniyyəti ehtiva edə bilər.

Məlumdur ki, «sivilizasiya» anlayışı XVIII əsrdə meydana gəlib və ilk anlar «mədəniyyət» məfhumunu ifadə edirdi. O vaxtlar sivilizasiya mədəniyyətin sinonimi kimi işlədilirdi. Sivilizasiya – latın dilindəki «sivilis» sözündən olub «vətəndaş», «mülki» mənalarını ifadə edir. Hal-hazırda «sivilizasiya» anlayışı başqa mənalarda ifadə olunur.

Vaxtilə L.Morqan «Qədim cəmiyyət» əsərində qeyd edirdi ki, sivilizasiya müəyyən mənada tarixi inkişafın bir formasının yekunu və yenisinin başlanmasıdır.Ancaq sivilizasiyanın daima inkişafı üçün ilk növbədə ictimai-siyasi və iqtisadi şərait lazımdır.

Ancaq sivilizasiya məfhumuna başqa gözlə baxan tarixçilər də olmuşlar.Məs.: məşhur alman fəlsəfə tarixçisi Osvald Şpenqler sivilizasiyanı tənqid edərək ona mədəniyyətin düşməni kimi baxırdı. XX əsr alman filosofu və nəzəriyyəçisi Şpenqler «sivilizasiyaya mədəniyyətin əleyhinə, mədəniyyətin mütərəqqi nailiyyətlərindən əl çəkmək, üz döndərmək kimi baxır, mədəniyyəti maddi və mənəvi sərvətlərin təbii inkişafı kimi, sivilizasiyanı isə cəmiyyətin texniki, texnoloji elementləri kimi göstərir, müasir texniki tərəqqini bəşəriyyəti məhv etməyə, mədəniyyətin süqutunu təşkil etməyə qadir olan fenomen hesab edirdi».

Bununla belə, filosofların bir çoxu göstərirlər ki, sivilizasiya və mədəniyyət bir-birilə sıx dialektik əlaqədədir. Özü də sivilizasiya mədəniyyətin inkişafının bir hissəsidir, cəmiyyətin inkişaf dərəcəsinin barometri və göstərcisidir.Ziyalılar, sosioloqlar və tədqiqatçılar ümumiyyətlə belə bir qənaətdədirlər ki, «sivilizasiya» termini dövlətin, cəmiyyətin maddi və mənəvi inkişafının göstərcisi və nəticəsidir.

Nəzəriyyəçilərin böyük əksəriyyəti belə fikirdədirlər ki, sivilizasiya fərdin intellektual tərəqqisini, tərəflərini və mənəvi keyfiyyətlərini nəzərdə tutur, mədəniyyətin inkişafı barbarlıqdan, vəhşilikdən sivilizasiyaya aparan yoldan başlayır.

Alim V.Qumbold qeyd edir ki, mədəniyyət elm və sənətdir, sivilizasiya isə xalqların insaniləşməsinin dərəcə və səviyyəsini dərk etməyə kömək edir, o, cəmiyyətdə mövcud olan adətləri və ənənələri, eləcə də insanların bunlara münasibətdə daxili vəziyyətini bildirir.L.Morqan isə sivilizasiyanın tərəqqisinin ən aşağı pilləsini yazının və əlifbanın meydana gəlməsi ilə əlaqələndirir.

Mədəniyyət və sivilizasiyanın dialektikasının tarixi uzun sürən bir prosesdir, geri qalmış millətlərin yavaş-yavaş inkişaf etmiş millətlərə çatmaq yolunda qarşılıqlı, lakin çətinliklə dolu olan münasibətlərin tarixidir.Göstərmək lazımdır ki, heç bir millət, xalq daim eyni bir səviyyədə qalmır, o, ya özündən əvvəlkini ötüb keçir, ya da geri qalır.Böyük iqtisadi qüdrət, siyasi nəzəriyyələr, mədəniyyət nümunələri bir ölkənin mədəni həyatından digər ölkənin həyat tərzinə, sosial gerçəkliyinə, mədəniyyətinə təsir edir.

Sivilizasiyanın tərəqqisi və inkişaf məntiqi elə olmalıdır ki, əvvəllər meydana gələn mühüm bir kəşfə ictimai yüksəlişin sonrakı mərhələsində daha artıq ehtiyac duya bilsin.Mədəniyyət və sivilizasiyanın mühüm cəhətlərindən bir də onların tarixən keçici xarakter daşımasındadır.Fərdlərə xas olan mədəniyyət daima inkişaf edir, dəyişilməz qalmır, bu və ya digər obyektiv və subyektiv amillərin təsiri nəticəsində ya formalaşır, ya da deformasiyaya məruz qalır.

Mədəniyyətin digər xüsusiyyətlərindən biri də onun varislik cəhətlərinə malik olmasıdır.Hər bir mədəniyyət özündən əvvəl yaranmış mədəniyyət və kəşflərindın istifadə edir, bəhrələnir, onun nümunələrini gələcək nəsillərə ötürürlər.Məs., Yunanstanda kəşf edilən və yaddan çıxan ilk buxar mexanizmləri, sonralar buxarla istifadə edilən mühərriklərə ehtiyacı olduğu zaman ondan faydalı şəkildə istifadə edilməyə başlanmışdır.

Bildirilməlidir ki, müxtəlif xalqlar öz tarixlərində ya tərəqqi etmiş və yaxud zəifləmişlər.Elə buna görə də, heç kimi özünü müstəsna xalq hesab etməyə haqqı yoxdur.Ancaq Şərq və Qərb sivilizasiyaları əsrlər boyu bir-birini tamamlamışdılar.Sivilizasiyaların tarixi tiplərindən asılı olmayaraq onun bütün inkişaf mərhələlərində millətlərin adət və mədəniyyətləri, dinləri, mənəvi dəyərləri müstəsna əhəmiyyət kəsb etmişdir.Burada söhbət xalqların sayca böyük, yaxud kiçik olmasından getmir, bəzən ən kiçik xalq bir sivilizasiyanın inkişafna böyük köməklik göstərir, onun sosial-iqtisadi tərəqqisini sürətləndirir.

Mədəniyyətlə sivilizasiyanın dialektik əlaqəsindən danışılan zaman deyilməlidir ki, mədəniyyətin inkişafı üçün zəruri olan hər bir mərhələ «sivilizasiya» məfhumu ilə əlaqədardır.Mədəniyyət sivilizasiyaya nisbətən daha qədim və aksioloji gücə malik-dir.Sivilizasiya inkişafın nəticə və səviyyəsini ifadə edib göstərirsə, mədəniyyət həmin nailiyyətlərin mənimsənilməsi yollarını və üsullarını bildirir.

Mövcud problemin təhlili belə qənaətə gəlməyə əsas verir ki, insanın mənəvi fəaliyyəti, məqsədləri və idealları sosial və real varlığın, sivilizasiyanın obyektiv qanunları ilə müəyyən olunur.Əsrlər boyu formalaşan insan öz inkişafında mənəvi-mədəni fəaliyyətində müxtəlif yanaşmaları əks etdirmişdir.Mədəniyyətin belə dərk olunması fərdin mədəniyyət sferasında məsuliyyətli, fəal, yaradıcı, düşüncəli fəallığının real təminatçısıdır.

Məlumdur ki, sivilizasiya cəmiyyət və mədəniyyətdən xeyli sonra meydana gəlmişdir.Sivilizasiya və mədəniyyət anlayışlarını ilk dəfə alman filosofu İmmanuil Kant fərqləndirmiş, XX əsrin əvvəllərində isə digər alman filosofu Osvald Şpenqler isə həmin anlayışları bir-birinə qarşı qoymuşdur.

Sivilizasiya mədəniyyətin inkişafının müəyyən dərəcəsi, hissəsi, səviyyəsi kimi başa düşülür.Tədqiqatçıların böyük əksəriyyəti belə bir baxışla razıdır ki, sivilizasiya xalqların, millətlərin insaniləşməsinin dərəcə və səviyyəsini, mədəniyyətin və intellektin tərəqqisini nəzərədə tutur.Elm, texnika və mədəniyyətin inkişaf etdiyi müasir dünyamızda mədəniyyət və sivilizasiyanın vəhdəti birgə, paralel şəkildə inkişaf etməlidir, dövrün qarşıya qoyduğu mürəkkəb sosial problemlərin həllində qarşılıqlı yaxınlıq şəraitində birgə iştirak etməlidir.Bu inkişaf və sosial-mənəvi tərəqqi zəminində şəxsiyyətin özünün ictimai mahiyyəti daha da məzmunlu olur, köhnə, vaxtı keçmiş sosial həyat funksiyaları, münasibətləri dağılır, yeniləri ilə əvəz olunur.

Məlumdur ki, mədəniyyət daha geniş anlayış olub, sivilizasiyanı da özündə birləşdirir, eyni zamanda sivilizasiya anlayışı əsasən cəmiyyətin müəyyən bir tarixi inkişaf dövrlərinə aid edilir.

Mədəniyyət kimi, sivilizasiya da ictimai həyatın spesifik formasıdır.Sivilizasiyanın tərəqqisi bu və ya digər regionun, yaxud qitənin maddi və mənəvi mədəniyyətinin müəyyən tarixi səviyyəsi ilə üzvi şəkildə bağlıdır.Ümumiyyətlə, sivilizasiyanı mədəniyyətdən heç vaxt təcrid edilmiş şəkildə təsəvvür etmək olmaz.Müəyyən müstəqilliyə malik olan, öz daxili qanun və prinsipləri ilə tərəqqi edən mədəniyyət daima sivilizasiyanın bütün iqtisadi, ictimai həyatı ilə bağlıdır və onun tərəflərindən hər birinə dialektik təsir göstərir.

## Ədəbiyyat


1. Əliyev H. Müstəqillik yolu. Bakı: Ay, 1997.
2. Əliyev Ə. Mənəvi mədəniyyət və din. Bakı:1993.
3. Rüstəmov Y. Sivilizasiyaların dialoqu bəşəriyyətin vəhdətinə aparan yoldur// Şərq-Qərb sivilizasiyalarının dialoqu. Bakı: 2005, №1.
4. Azərbaycan mədəniyyət siyasətinin formalaşmasına yardım. Bakı: Sabah, 2001.
5. Кант И. Критика чистого разума (Сот. В. 6 т. 1964. Т.3. с. 101).
6. Мехтиев Р.Э. Межнациональные отношения на исходе XX столетия: проблемы теории и политики. Баку: Аз. Гос. Изд. 1995.
7. AslanovR. Qloballaşmavə mədənimüxtəliflik. Bakı: «Elm», 2004.


**Адил Садыхов**

## Цивилизация и культура
## Резюме

В статье говорится о понятиях культуры и цивилизации. И показываются диалектическая связь этих понятий. Отмечается, что материальная культура играют базовую роль в развитии духовной культуры. Говорится так же о том что, несмотря на близость между понятиями культура и цивилизация, их необходимо различать: В отличии от культуры цивилизация непосредственно связана с техническим развитием и прогрессом общества и впитывает в себя несколько культур.

**Ключевые слова:** культура, цивилизация, человек, общество, духовность, диалектика, прогресс

**Adil Sadikhov**

## Civilization and Culture
## Summary

The article talks about the concepts of culture and civilization. And the dialectical connection of these concepts is shown. It is noted that material cultures play a basic role in the development of spiritual culture. It is also said that, despite the similarity between the concepts of culture and civilization, they must be distinguished: Unlike culture, civilization is directly related to the technical development and progress of society and absorbs several cultures.

**Keywords:** culture, civilization, human, society, spirituality, dialectics, progress.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 02.03.2019 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 06.03.2019Məqalənin çapa qəbul olunma tarixi: 17.04.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: fəlsəfə doktoru, dosentSevinc Şahhüseynova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**